# Milli ruhlu tablolardan süzülən şəfəqlər



O, tanınmış, istedadlı gənc rəssamlarımızdan biridir. Bu günədək bir neçə dəfə əsərlərindən ibarət fərdi sərgiləri təşkil olunub. Onun əsərləri beynəlxalq və respublika əhəmiyyətli sərgilərdə nümayiş olunub, mükafatlara layiq görülüb. O, Azərbaycanın və Naxçıvan MR-in Əməkdar rəssamı fəxri adlarına layiq görülüb. Hazırda Naxçıvan Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatıdır. Söhbət bu günlərdə Muzey Mərkəzində fərdi sərgisi təşkil olunmuş istedadlı rəssam Ülviyyə Həmzəyevadan gedir. Ülviyyə Tapdıq qızı Həmzəyeva Naxçıvan MR Babək rayon Şəkərabad kəndində anadan olub. Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində bakalavr və magistr pillələri üzrə rəssamlıq təhsili alıb. Hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantıdır.









Naxçıvan Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğul olur. Rəssamın yaradıcılıq manerası və ərsəyə gətirmiş olduğu əsərlərin texnikası çoxşaxəlidir. O, əsasən, rəngkarlıq və qarfika sahəsində bir-birindən maraqlı, diqqəti cəlb edən sənət nümunələri yaradıb.

Ü.Həmzəyevanın Naxçıvan Dövlət Milli Musiqili Dram Teatrında səhnələşdirilmiş tamaşalara yaratmış olduğu teatr dekorasiya işləri ayrıca qeyd olunmalıdır. O, peşəkar rəssam olmaqla yanaşı, həm də bacarıqlı yaradıcı təşkilatçıdır. Naxçıvan Rəssamlar Birliyinin sədri kimi onun təşəbbüsü ilə Naxçıvanda təsviri sənət istiqaməti üzrə bir çox uğurlu layihələr həyata keçirilib. 2012-ci ildən etibarən hər iki ildən bir təşkil olunan "Naxçıvan - bəşəriyyətin beşiyi" adlı Beynəlxalq Rəsm Festivalı uğurlu layihələrdən biridir.

Ü.Həmzəyevanın yaradıcılıq dünyası, təxəyyülü və rəssamlıq dünyagörüşü minilliklərdən süzülüb gələn, milli ənənələrimizin özəyini təşkil edən mifoloji və folklor təfəkkürünə, ulu Qobustan, Gəmiqaya dünyasına, zəngin miniatür sənətinə tapınır. Rəssamın tablolarında qədim Avesta süjetləri, zəngin rəmzi təsvir elementləri qarşılıqlı vəhdətdə - dialoq şəklində təzahür olunub. Rəssamın sərgisinin adı uğurla tapılıb - "Əcdadların izi ilə". Bu sərgidə nümayiş olunan tabloların fəlsəfi mahiyyəti - ruhu ilə səsləşir. Onun məna və məzmun dolu yaradıcılıq nümunələrinə tamaşa edəndə rəssamın ulu əcdadlarımızın mənəvi irsinin izinə düşdüyünü və tamaşaçını da özü ilə bu sirli dünyaya səyahətə apardığını hiss edirsən. Rəssamın rəngkarlıq əsərlərindən "Həyat həqiqəti", "Yuxuya bənzər sevgi", "Həyat ağacı", "Şuşada öpüş", "Bəşəriyyətin beşiyi", "Paralel həyat", "Narahat ruhlar", "Sikkə", "Ailə sirli qapı", "Arzular qayığı" və başqalarını qeyd etmək olar.

Düşünürəm ki, bu fərdi sərgi rəssamın sənət ictimaiyyəti qarşısında möhtəşəm yaradıcılıq hesabatıdır. Burada nümayiş olunan təsviri sənət nümunələri Ü.Həmzəyevanın on illiklər ərzində aparmış olduğu gərgin yaradıcılıq axtarışları, sənət eksperimentləri sayəsində gəlmiş olduğu yaradıcı rəssam qənaətləridir. Sərgilənən tablolarla baş-başa qalanda, rəssamın nə qədər zəngin yaradıcı təxəyyülə, incə görüm-duyum qabiliyyətinə, özünəməxsus yaradıcılıq dəst-xətinə malik olduğuna bir daha əmin olursan.

Ali Baş Komandan, Prezident İlham Əliyevin uğurlu siyasəti və müzəffər ordumuzun şücaəti nəticəsində 44 günlük qələbədən sonra rəssamın palitrasında Qarabağ, Şuşa, Xarıbülbül, Xan qızı Natəvan, şəhidlərimizin obrazları özünəməxsus yaradıcı təxəyyüllə öz bədii təzahürünü tapıb. Ü.Həmzəyeva möhtəşəm qələbədən sonra bir neçə dəfə işğaldan azad olunmuş bölgələrimizə səfər edib, diqqəti cəlb edən, bədii-estetik təsir qüvvəsinə malik sənət nümunələri ərsəyə gətirib.

Rəssamın qrafika əsərlərindən "Çirkin ördək", "Bürclər", "Avesta", "Mistik Misir", "Fəsillər", "Bəşəriyyət" və digərlərini nümunə göstərmək olar. Ü.Həmzəyevanın obrazlar dünyasına səyahət edəndə adamı bir sual düşündürür: Rəssamda bu enerji, bu zəngin yaradıcılıq dünyası, əski mənəvi dünyamıza bu dərəcədə bağlılıq haradan qaynaqlanır?! Bunun cavabı məncə, onun dünyaya ilk dəfə göz açdığı, böyüyüb, boya-başa çatdığı qədim, zəngin və misilsiz tarixə, memarlıq abidələrinə, ecazkar iqlimə, təbiətə, dağlara malik Naxçıvan diyarıdır. O diyar ki, qoynunda Nuh məqbərəsi, Əshabi-Kəhf mağarası, Kültəpə mədəniyyəti, Gəmiqaya rəsmləri, Xarabagilan qalıqları, Möminə Xatun türbəsi, Qarabağ abidələri və saymaqla bitməyən milli-mənəvi xəzinəmizi yaşadır. Təbiidir ki, rəssamın məxsusi yaradıcılıq dünyasının, dəst-xətinin formalaşmasında bu amil əsas rol oynayıb. Rəssamın yaratmış olduğu çoxsaylı obrazlar qalereyasına tamaşa etdikdə bu və ya digər şəkildə sadaladığımız bədii təsvir elementləri asanlıqla müşahidə olunur. Bu da rəssamın milli-mənəvi xəzinəmizə, ulu keçmişimizə onun sədaqəti, vətəndaşlıq mövqeyidir.

Ü.Həmzəyeva portretlər qalereyasını ərsəyə gətirib. Rəssamın bu sırada "Ulu Öndər Heydər Əliyev", "Prezident İlham Əliyev", "Vitse-prezident Mehriban xanım Əliyeva", "Ali Məclisin sədri Vasif Talıbov", "Hüseyn Cavid", "Mirzə Cəlil", "M.Ə.Sabir", "Bəhruz Kəngərli", "S.Bəhlulzadə", "Məmməd Araz", "Akademik İsa Həbibbəyli" və başqalarını qeyd etmək olar. Sadalanan hər bir portret əsərində rəssam yaratdığı bədii obrazın yaradıcılıq dünyasına baş vurub, onun daxili dünyagörüşünün zənginliyini zahiri dünyasında təzahür etməyə müvəffəq olub. Bax elə budur rəssamın peşəkarlığı, dərin bədii yaradıcılıq müşahidələrinə malik ola bilməsi. Ü.Həmzəyevanın yaratmış olduğu portretlərin hər biri ayrı-ayrılıqda bədii təhlil və təsvir xüsusiyyətlərinə malikdir. Rəssamı onun özündən daha yaxşı təsvir etmək məncə, çətindir. Bu mənada onun avtoportret əsərləri ən yaxşı vasitədir. O, özünün bir neçə avtoportretini yaradıb. Bu cəhət də maraqlıdır ki, rəssam bir obraz kimi balaca qızı - İlknurun surətindən bir çox əsərlərində istifadə edib. Bu istiqamət məşhur əfsanəvi fırça ustası Toğrul Nərimanbəyovun da yaradıcılığında müşahidə olunur. Bu yerdə Ü.Həmzəyevanın tablolarında yaratmış olduğu obrazlar bolluğunu da T.Nərimanbəyov yaradıcılığı ilə müqayisə etmək olar.

Möhtəşəm sərgi salonlarını gəzdikcə, rəssamın zəngin və çoxşaxəli yaradıcılıq dünyasını əks etdirən sənət nümunələrini seyr etdikcə, Ülviyyə Həmzəyevanın necə bir istedadlı rəssam və geniş yaradıcılıq dünyasına malik insan olduğunu düşünürsən. Doğrudan da, rəssamın təşkil olunan bu fərdi sərgisi onun sənət ictimaiyyəti qarşısında sınaqdan uğurla çıxdığının əyani sübutudur.

***Əsəd QULİYEV,***
***sənətşünas,***
***Rəssamlar İttifaqının üzvü***

Azərbaycan. - 2022.- 30 oktyabr.- S.8.